MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

## TEATR SƏNƏTİ

**UOT 792.01**
**ORCID:0009-0003-0610-9584**
**https://doi.org/10.52094/QSYZ9007**

**Şəhla Əliyeva Hüseyn qızı**
**Bakı Xoreoqrafiya Akademiyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**shahlaaliyeva2014@gmail.com**

# "ÇƏTİN DÖVR"ÜN SINAĞI VƏ YA GƏNC AKTRİSALARIN UĞURLU YARADICILIQ AXTARIŞLARI

**Xülasə:** Məqalədə ötən əsrin 80-ci illərində səhnəyə gələn və tezliklə 90-cı illərin çətin dövrünü yaşayan gənc Azərbaycan aktrisalarının yaradıcılığından danışılır. Qeyd olunur ki, bu aktrisaların özünü sənətdə təsdiq etməsi 90-cı illərə təsadüf edir. Həmin dövrdə Qarabağ hadisələri, 20 yanvar faciəsi, iqtisadi çətinliklər cəmiyyətə, mədəniyyətə, o cümlədən teatr sənətinə mənfi təsir göstərirdi. Bununla belə həmin dövrün bir çox gənc aktrisası – Bəsti Cəfərova, Firəngiz Mütəllimova, Zemfira Nərimanova, Məlahət Abbasova, Hicran Nəsirova və başqaları öz sənət nailiyyətlərini məhz həmin dövrdə əldə etmişlər. Məqalədə 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Dövlət Akademik Dram Teatrının repertuarında yer alan tamaşalara diqqət yetirilmiş, gənc aktrisaların yaradıcılıq axtarışları təhlil edilmişdir.
**Açar sözlər:** Azərbaycan teatrı, 90-cı illər, Mərahim Fərzəlibəyov, gənc aktrisalar, Bəsti Cəfərova, Firəngiz Mütəllimova, Məlahət Abbasova.

**Giriş.** Azərbaycan teatrı böyük və zəngin tarixə malikdir. Uğurlu sənət ənənələrinə imza atan milli teatr sənətimiz bir çox istedadlar yetişdirmişdir. Onların yaratdığı sənət ənənəsi əsl məktəb kimi gənclərin yetişməsində mühüm rol oynamışdır. Bu gənclərin içində gənc aktrisalar da var idi.

Ötən əsrin 60-80-ci illəri bədii mədəniyyətin digər sahələri ilə yanaşı, teatrın da yüksəliş illəri olmuşdur. Lakin sonralar, artıq 80-ci illərin sonlarına yaxın çökməkdə olan Sovet ölkəsində baş verən məlum hadisələr bu inkişafa xeyli mane oldu. Buna baxmayaraq gənclər, xüsusilə gənc aktrisalar çətinliklərlə barışmaq istəmir, səhnədə özlərini təsdiq etməyə can atırdılar.

Ötən əsrin 80-ci illəri xeyli sayda gənc aktrisanın teatra gəldiyi dövrdür. Onların bir çoxu ilk sənət debütlərini məhz o illərdə edib. Lakin həmin aktrisaların qismətinə 90-cı illərin çətinliklərini yaşamaq kimi mürəkkəb tale payı düşmüşdü. Gənc aktrisaların əksəriyyəti bu çətinliyin öhdəsindən gəlməyi bacardılar.

**Əsas materialın şərhi.** Mövcud çətinliklərə baxmayaraq Akademik Milli Dram Teatrı öz fəaliyyətini davam etdirirdi. 80-ci illərin sonu-90-cı illərin əvvəlində Lütfi Məmmədbəyov, Həsən Əbluç, Ağakişi Kazımov, Azər Paşa Nemət, Mərahim Fərzəlibəyov və başqa rejissorlar müxtəlif tamaşalar hazırlamışdılar. Onların bəziləri uğurlu səhnə həlli ilə yadda qalmışdı [2, s. 385].

1989-cu ilin yaddaqalan quruluşlarından biri İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" pyesi idi. Rejissor Mərahim Fərzəlibəyov (ondan əvvəl Həsən Əbluç əsəri tamaşaya hazırlayırdı) ictimai ədalətsizliyin, baş alıb gedən cəzasızlığı və bunun labüd nəticəsi olan faciələri səhnənin zəngin bədii imkanları vasitəsilə dolğun, həm də psixoloji planda əks etdirmək istəyirdi. Əslində bu, elə İlyas Əfəndiyevin öz təşəbbüsü olub 37-ci il repressiyalarını yeni dövrdə açıb göstərmək istəyindən irəli gəlirdi. Obrazlı desək, İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" əsəri Şıxəli Qurbanovun iki onillik öncə qələmə aldığı "Sənsiz" pyesinin yeni ictimai-siyasi mühitdə təzahür forması idi. Səhnədə Kamal Xudaverdiyev (ÇK işçisi), Ramiz Novruzov (Məhəmməd Cuvarlı), Səyavuş Aslan (aktyor Cabbar) kimi yaşlı nəsil nümayəndələri ilə yanaşı gənclər də iştirak edirdi. Gənc aktrisa Məlahət Abbasovanın ifa etdiyi Xumar obrazı eyni zamanda həm zərif, kövrək, həm də güclü, qətiyyətli təsir bağışlayırdı. Xumar gənc bir qızdır, utancaqdır, lakin sevgilisinin – Ayaz Turanın (Füzuli Hüseynov) başına gələnlər onu sərtləşdirir, dözümlü edir. Ayaz Turanın repressiyalara məruz qalması Xumarın həyat faciəsinin başlanğıcı olur və obrazın mənəvi-psixoloji inkişafında aparıcı istiqamətə çevrilir. Məhz bu cəhət tamaşanın janr estetikasını müəyyən edirdi. Şəkildən-şəklə inkişaf edən bu obraz gənc Məlahət Abbasova üçün çətin idi. Lakin əsərdə obrazın gənc qız olması onu bu çətinliklərin öhdəsindən gəlməyə vadar edirdi. Məlahət Abbasova teatra cəmi iki il öncə – 1987-ci ildə gəlmişdi. Bu, "yaxşı dövr"ün sonuncu ili idi. Cəmi bir neçə ay sonra bədnam qonşularımızın əsasız ərazi iddiaları başlandı və həyanın normal axarı pozuldu. Günahsız azərbaycanlıların Qarabağ və Qərbi Azərbaycandan qovulması, iqtisadiyyatdakı durğunluq, maddi durum səviyyəsinin aşağı düşməsi,

inflyasiya və qiymətlərin durmadan qalxması zəncir halqaları kimi bir-birinin ardınca düzülməyə başladı.

80-ci illərdə teatra gəlmiş gənc aktrisaların özünü sənətdə təsdiq etməsi belə bir dövrə təsadüf etmişdi. Bəsti Cəfərova, Firəngiz Mütəllimova, Hicran Nəsirova, Zemfira Nərimanova, Məlahət Abbasova, Məleykə Əsədova və başqaları belə bir tale ilə üzləşdilər. Bu, bir alın yazısı idi.

Sənətə 80-ci illərdə qədəm qoymuş Bəsti Cəfərova 1989-cu ildə Cahan Əfruzun "Qanqın böyük dalğası" pyesində (rejissor Lütfi Məmmədbəyov) Safi, Hicran Nəsirova və Həqiqət Nəbiyeva isə Şayrobha rolunda çıxış etdilər. Bu aktrisalar artıq həmin dövrə qədər müxtəlif tamaşalarda oynamış və tamaşaçı rəğbəti qazanmışdılar. Lakin 80-ci illərdə onlar gənc idilər və reputasiyalarının möhkəmlənməsi üçün hələ çox iş görmək tələb olunurdu. Digər tərəfdən "çətin dövr" artıq başlanırdı. 1989-cu ildə meydan hərəkatının geniş vüsət alması teatra olan marağa mənfi təsir göstərirdi. Vaxtilə tərpənməyə yer olmayan Akademik Dram Teatrının böyük salonunda indi tamaşaçı toplamaq müşkülə çevrilmişdi. "Qanqın böyük dalğası" pyesində gənc aktrisalarla yanaşı digər aktyorlar da oynayırdı. Kamal Xudaverdiyev (Roşik), Əli Nur (Kumar), Məcnun Hacıbəyov (Marvar) kimi nüfuzlu aktyorların zəhmətinə baxmayaraq tamaşa uğur qazana bilmədi. Həmin dövrdə Azərbaycanın qəlbi meydan hərəkatı ilə döyünürdü. Hind həyatından bəhs edən tamaşa tamaşaçı qəlbinə yol tapmadı. Professor İ.Rəhimlinin yazdığı kimi, "Teatrın səhnəsində cəmi səkkiz dəfə (altı dəfə də Bakı kəndləri, rayonları və məktəblərində oynanıldı) göstərilən Lütfi Məmmədbəyovun sönük, zövqsüz quruluş verdiyi, hind həyatından bəhs edən "Qanqın böyük dalğası" tamaşası teatrın çox uğursuz addımı idi" [4, s. 277]. Lakin bu, məsələnin bir tərəfidir. Digər tərəfdən tamaşa gənc aktrisaların – Bəsti Cəfərovanın, Hicran Nəsirovanın və Həqiqət Nəbiyevanın özünü təsdiqi üçün müəyyən bir tramplin rolunu oynadı. Məhz həmin tamaşadan sonra Bəsti Cəfərova daha mürəkkəb rollarda çıxış etmək imkanı qazandı. Ən əsası isə, İlyas Əfəndiyev dramaturji irsinə daxil oldu, bu dramaturgiyanın zəngin milli-mənəvi dəyərlərindən yaradıcılıqla bəhrələndi [5, s. 5]. O, "Xurşidbanu Natəvan", "Hökmdar və qızı", "Büllur sarayda" və digər tamaşalarda oynadı, Amaliya Pənahova kimi sənətkarın yolunu uğurla davam etdirdi. Bu mənada 1989-cu ilin hətta uğursuz "Qanqın böyük dalğası" quruluşu da gənc aktrisaların sənətdə inkişafı baxımından əhəmiyyətsiz olmadı.

Onların sənətdə özünü təsdiq etməsi mürəkkəb ictimai-siyasi şəraitdə gedirdi. Qarabağ hadisələri və maddi çətinlik qorxunc kabus kimi milli mədəniyyətin, eləcə də teatr sənətinin başı üzərini almışdı. Qarabağ hadisələri qorxunc müstəvidə inkişaf edirdi. "Qanqın böyük dalğası" tamaşası ilk dəfə 1989-cu ilin noyabr ayında oynanılmışdı. Bundan cəmi iki ay sonra qanlı 20 yanvar hadisələri baş verdi.

Çətin dövrün sınaqları ilə üzləşən gənc aktrisalardan biri də Firəngiz Mütəllimova idi. Gənc aktrisa hələ 1982-ci ildə Anarın "Evləri köndələn yar" (rejissorlar Ramiz Həsənoğlu və Tariyel Vəliyev) teletamaşasındakı Mərcan rolu ilə tamaşaçı sevgisi qazanmışdı. Lakin vaxt sürətlə ötüb keçirdi. Səhnədə gənc, şən, qayğısız rollar daha mürəkkəb, çoxplanlı, daxili ekspressiyası və gərginliyi ilə seçilən rollarla əvəzlənəli idi. Bu baxımdan Firəngiz Mütəllimovanın 80-ci illərin sonlarında Akademik Milli Dram Teatrının səhnəsində yaratdığı bir sıra rollar uğurlu sənət karyerasının inkişafı üçün etibarlı zəmin oldu.

1989-cu ildə Cəmil Əlibəyovun "Gülüstanda qətl" əsəri tamaşaya qoyuldu (rejissor Ağakişi Kazımov). Tamaşada oynamaq üçün həm orta və yaşlı, həm də gənc aktyorlar dəvət almışdı. Belə ki, tamaşada Zərnigar Ağakişiyeva (Bəyim nənə), Bürcəli Əsgərov (İlyas İsbatov) kimi təcrübəli aktyorlarla yanaşı, Fəxrəddin Manafov (Elyar), Firəngiz Mütəllimova (Saleһə) kimi gənc kadrlar da işə cəlb edilmişdi. Lirik-psixoloji janrda hazırlanmış tamaşa əslində çox uğurlu alınmasa da, hər halda gənclərin özünü təsdiq etməsi üçün müəyyən rol oynadı. Bu baxımdan tamaşa Firəngiz Mütəllimova üçün daha əhəmiyyətli idi. Çünki o, həmin dövrdə teatrda çalışırdı. Fəxrəddin Manafov isə kinostudiyadan dəvət edilmişdi və gənc də olsa, kino vasitəsilə artıq kifayət qədər tanınırdı. Elə həmin dövrdə Firəngiz Mütəllimova da bir neçə teletamaşada rol aldı. Bununla da gənc aktyorların teatr səhnəsindəki əməyi onların tele-kino fəaliyyəti ilə birləşərək sənət karyerasının möhkəmlənməsinə kömək etdi.

Qanlı 20 yanvar faciəsi Azərbaycan teatrının fəaliyyətinə olduqca mənfi təsir göstərdi. Sosial-siyasi sabitliyin olmaması, Qarabağ hadisələri, inflyasiyanın dərinləşməsi teatrın yaradıcı heyətinin psixoloji və maddi durumuna mənfi təsir göstərirdi. Təsadüfi deyil ki, 1990-cı ildə Akademik Milli Dram Teatrının səhnəsində heç bir yaddaqalan tamaşa oynanılmadı. Hətta Azər Paşa Nemətin rejissor kimi fəaliyyəti də ilk zamanlar bir nəticə vermədi.

Lakin həyat davam edirdi. İqtisadi çətinliklərə baxmayaraq 1991-ci ildə rejissor Mərahim Fərzəlibəyovun səyləri nəticəsində İlyas Əfəndiyevin “Tənha iydə ağacı” və Sabit Rəhmanın “Yalan” pyeslərini tamaşaya qoyuldu. Hər iki tamaşa gənclərin sənətdə inkişafı baxımından real imkanlara malik idi. “Tənha iydə ağacı” tamaşasında gənc aktrisalardan Bəsti Cəfərovanın (Sürəyya), Firəngiz Mütəllimovanın (Gülnaz) və Məlahət Abbasovanın (Kəklik) ifası onların obrazlar qalereyasını daha da genişləndirdi. Bəsti Cəfərovanın “Tənha iydə ağacı” pyesindəki Gülnaz rolu onun üçün Amaliya Pənahovanın İlyas Əfəndiyev dramaturgiyasındakı rollarının ifası qarşısında bir növ yaşıl işıq oldu. Çünki məhz “Tənha iydə ağacı” tamaşasında Sürəyya rolunda o, ikinci aktrisa (dublyor) qismində çıxış edirdi. Sürəyya obrazının əsas ifaçısı isə Amaliya Pənahova idi. Keçid uğurlu alındı və gənc aktrisanın karyerasında dönüş nöqtəsinə çevrildi. Sonralar bu inkişaf Natəvan (“Xurşidbanu Natəvan”) obrazının səhnə təcəssümü ilə öz kulminasiyasına çatdı.

Dramaturji materialın səhnə təcəssümündə Firəngiz Mütəllimova (Gülnaz) və Məlahət Abbasova (Kəklik) da öhdələrinə düşən vəzifəni yerinə yetirməyə nail oldular. Mikayıl Mirzə (Eyvaz), Xanbikə (Nəcibə Məlikova və Ətayə Əliyeva), Doktor Altay (Əli Nur və İlham Əsgərov) kimi bitkin surətlərlə tərəf-müqabil olmaq onların yeni sənət təcrübəsi əldə etməsində az rol oynamadı.

“Yalan” tamaşası da gənc aktrisaların özünü səhnədə təsdiq etməsində müəyyən bir hesabat, yekun nöqtəsi odu. Tamaşa ilk dəfə hələ 1965-ci ildə göstərilmiş və həmin dövrdə böyük uğur qazanmışdı. Sabit Rəhman dramaturgiyasına xas duzlu yumor “Yalan” üçün də xarakterik idi və ifaçılar bu xarakterikliyi səhnədə dolğun şəkildə əks etdirməyə çalışırdılar [1, s. 102-104]. Ümumiyyətlə, Sabit Rəhman dramaturgiyasındakı komiklik ictimai eybəcərliklərin ifşasına yönəlmişdi. Bu mənada onun “qəhrəmanları” da bir-birilərinə yaxındır. Aşağıdakı fikir bunu təsdiq edir: “Beləliklə, "Toy"da "kərəmovçuluq", "Əliqulu evlənir"də "vəzifə ehtirası", "Yalan"da isə "yalan" fəlsəfəsi Kərəmov, Əliqulu və Şəlalə satirik xarakterlərində təsdiq edilir. Bu əsərlər yalnız satiranın kəskinliyi baxımından deyil, konflikt, komik oyun və satirik xarakter etibarilə də bir-birinə yaxın mövqedədir”[3, s. 5]. Əlbəttə, bu cəhət aktyorlardan, xüsusilə gənclərdən böyük məharət, obrazın daxili aləmini açmaq qabiliyyəti tələb edirdi. Lakin gənclər bu işin öhdəsindən gələ bildilər. Gənc aktrisalardan Zöhrə Şirinova (Şəlalə xanım) və Həqiqət Nəbiyevanın

(Kəklik) ifaları daha təcrübəli aktyor ifaları ilə uyğunluq təşkil edərək janr estetikasının zənginləşdirilməsinə öz töhfəsini verdi.

Lakin "Tənha iydə ağacı" ilə "Yalan"ın quruluşları arasında əsaslı fərqlər var idi. Məsələ təkcə bunda deyil ki, bunlardan biri lirik-psixoloji, digəri isə komediya janrındadır. Əsas məsələ "Yalan"ın daha əvvəllər oynanılması idi. Bu baxımdan gənc aktrisaların qarşısında əvvəlki nəslin təcrübəsi dayanırdı və onlar həmin təcrübədən yararlana bilirdilər. Doğrudur, gənclərdən demək olar ki, heç biri "Yalan"ın 1965-ci ildəki quruluşunu xatırlamırdı. Bundan başqa, həmin dövrdə (90-cı illərin əvvəllərində) internet şəbəkəsi və You Tube kanalları da yox idi. Lakin orta nəsil var idi və həmin nəsil ötən dövrlərlə müasir gənclik arasında bir növ ötürücü rolunu oynayırdılar. Üstəlik 90-cı illərin əvvəllərində Akademik Milli Dram Teatrında Tofiq Kazımovun ("Yalan"ın ilk rejissoru) sənət ənənəsi hələ davam edirdi. Bu ənənə Mərahim Fərzəlibəyova da yaxşı tanış idi. Bütün bunlar "Yalan"ın 1965-ci il quruluşu ilə 1991-ci il quruluşu arasındakı bağlılıq münasibətlərini möhkəmləndirirdi və gənc aktrisalar bundan şübhəsiz ki, yararlanmışdılar.

"Tənha iydə ağacı" pyesinin quruluşunda isə vəziyyət başqa cür idi. "Tənha iydə ağacı" yeni əsər idi və ilk dəfə məhz 1991-ci ildə adlarını qeyd etdiyimiz gənc aktrisaların iştirakı ilə tamaşaya qoyulmuşdu. Əsərin dramatik məzmunu (burada qürbətdə yaşayan azərbaycanlıların vətən həsrəti gərgin lirik-psixoloji müstəvidə əks olunmuşdu) daha böyük və ciddi hazırlıq tələb edirdi.

"Tənha iydə ağacı" tamaşasının gənc aktrisalar üçün önəmli olan daha bir yaddaqalan cəhəti müxtəlif ifalarda geniş transferlərin olması idi. Aktyorlar arasında rol bölgüsünün zaman-zaman dəyişilməsi əsərin və qəhrəmanların daha dərindən mənimsənilməsinə yardım edirdi. Bu, həm də sağlam rəqabət yaradır, məsuliyyət hissini, sənətdə tərəfdaşlıq münasibətlərini artırırdı. Bunu bir sənət təcrübəsi də adlandırmaq olar. Mərahim Fərzəlibəyov artıq məşq zamanı bir rola bir neçə gənc aktrisanı cəlb etməklə həm dublyor hazırlamış, həm də sonrakı dövrlər üçün rol dəyişkənliyini təmin etmişdi. Onun bu təcrübəsi gənc aktrisaların sənətinin püxtələşməsində az rol oynamadı. Bir neçə ifadan sonra Firəngiz Mütəllimova (Gülnaz) estafeti Zemfira Nərimanovaya verdi, Məlahət Abbasova (Kəklik) isə rolunu Hicran Nəsirovaya ötürdü.

**Nəticə.** 80-ci illərin sonu – 90-cı illərin əvvəli Azərbaycan teatr sənətinin "çətin dövrü" olmuşdur. Lakin uğurlu sənət axtarışları bu dövrdə də davam etmişdir. Bu cəhət həmin dövrdə səhnəyə gələn, yaxud səhnədə özünü təsdiq

etməyə çalışan gənc aktrisaların yaradıcılıq fəaliyyətində özünü aydın büruzə verir. Biz hazırkı yazıda səhnəyə 80-ci illərdə gələn və tezliklə "çətin dövr"lə üzləşən bir neçə aktrisanın – Bəsti Cəfərovanın, Firəngiz Mütəllimovanın, Hicran Nəsirovanın, Məlahət Abbasovanən, Həqiqət Nəbiyevanın sənət yollarından və səhnə uğurlarından bəhs etdik. Onların sənətə gəlişi yaxşı dövrə təsadüf etsə də, bir aktrisa kimi roldan-rola inkişafı "çətin dövr"də baş tutmuşdur. Bununla belə, məhz həmin dövrdə onların gənclik potensialı öz yaradıcılıq imkanlarını Azərbaycan tamaşaçısı qarşısında göstərə bilmişdi. Əlbəttə, bu və digər aktrisaların sənətdəki yolu rahat, hamar olmayıb. Ruh düşkünlüyünə qapılmaq, xaricə üz tutmaq, hətta müəyyən müddətdə sənəti tərk etmək kimi hallar da olmuşdur. Lakin önəmli olan budur ki, hətta çətin mərhələlər belə onların istedadını, sənətdə özünü təsdiq edə bilməsi arzusunu əzib yox edə bilməmişdi. Bu aktrisaların sonrakı sənət yolu və yaradıcılıq nailiyyətləri həmin fikri tamamilə təsdiq edir.

## Ədəbiyyat siyahısı:

1. Ağayeva M. Sabit Rəhman dramaturgiyasında şəxsiyyət və cəmiyyət problemi. B; – Zəngəzurda. – 2024. – 176 s.

2. Azərbaycan teatr antologiyası. İki cilddə. İkinci cild. B: – E.L. – 2013. – 621 s.

3. Əhmədov B. Görkəmli komedioqraf və yazıçı Sabit Rəhman – 100 // Ədəbiyyat qəzeti. – 2010. – 19 mart. – S. 5. http://www.anl.az/down/meqale/edebiyyat/2010/mart/112029.htm

4. Rəhimli İ. Azərbaycan teatr tarixi. Üç cilddə. Birinci cild. B: – Şərq – Qərb. – 2017. – 605 s.

5. Təyyar Salamoğlu. İlyas Əfəndiyev fenomeni tarixi mövzu və milli-mənəvi dəyərlər kontekstində // "Xalq qəzeti", 7 iyun 2009-cu il, s. 5.

**Shahla Aliyeva Huseyn gizi**

## The Test of "Hard Times" or Successful Creative Searches of Young Actresses

**Summary:** The article examines the work of young Azerbaijani actresses who came to the stage in the 1980s and soon survived the hard times of the 1990s. It is noted that these actresses established themselves in theatrical art in the 1990s. At that time, the Karabakh events, the tragedy of January 20,

economic difficulties had a negative impact on society, culture, including the theater. However, many young actresses of that era - Basti Jafarova, Firangiz Mutallimova, Zemfira Narimanova, Malahat Abbasova, Hijran Nasirova and others achieved their creative successes during this period. The article examines the performances from the repertoire of the Azerbaijan State Academic Drama Theater of the late 80s - early 90s and analyzes the features of the creative searches of young actresses.

**Key words:** Azerbaijani theater, 1990s, Marahim Farzalibayov, young actresses, Basti Jafarova, Firangiz Mutallimova, Malahat Abbasova

**Шахла Алиева Гусейн гызы**

**Испытание «трудного времени» или успешные творческие поиски молодых актрис**

**Резюме:** В статье рассматривается творчество молодых азербайджанских актрис, пришедших на сцену в 1980-е годы и вскоре переживших непростые времена 1990-х годов. Отмечается, что эти актрисы утвердились в театральном искусстве в 1990-х годах. В то время карабахские события, трагедия 20 января, экономические трудности оказали негативное влияние на общество, культуру, в том числе и на театр. Однако многие молодые актрисы той эпохи – Басти Джафарова, Фирангиз Муталлимова, Земфира Нариманова, Малахат Аббасова, Хиджран Насирова и другие – достигли своих творческих успехов именно в этот период. В статье рассматриваются спектакли из репертуара Азербайджанского государственного академического драматического театра конца 80-х – начала 90-х годов, анализируется особенности творческих поисков молодых актрис.

**Ключевые слова:** азербайджанский театр, 1990-е годы, Марахим Фарзалибеков, молодые актрисы, Басти Джафарова, Фирангиз Муталлимова, Малахат Аббасова.

Məqalənin redaksiyaya daxilolma tarixi: 22.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 28.10.2025